**UOT 327**

# SOVET İTTİFAQININ DAĞILMASI, BEYNƏLXALQ NİZAMIN REGİONAL VƏ BEYNƏLXALQ SƏVİYYƏDƏ DƏYİŞDİRİLMƏSİ

**Elvin ŞİRİNOV***

Məqalə redaksiyaya daxil olmuşdur: 22 fevral 2025; çapa qəbul edilmişdir: 14 iyul 2025; online-da çap edilmişdir: 23 sentyabr 2025.

Received: 22th of February, 2025; accepted: 14th of Jule, 2025; published online: 23th of September, 2025.

**Açar sözlər:** *Sovet İttifaqı, ABŞ, soyuq müharibə, beynəlxalq nizam*

## Giriş

Sovet İttifaqının dağılması 1980-ci illərin sonundan 1991-ci ilə qədər davam edən bir sıra daxili və xarici amillərlə formalaşdı. Bu proses dünya birliyində yeni dinamika və beynəlxalq münasibətlərdə böyük dəyişikliklər yaratdı. Soyuq müharibənin başa çatmasına və yeni qlobal nizamın yaranmasına gətirib çıxardı. Nəticə etibarilə, SSRİ ilə ABŞ arasında qarşıdurma sona çatdı, sosialist düşərgəsi süqut etdi, Varşava Müqaviləsi Təşkilatı buraxıldı, QİİŞ ləğv edildi, Almaniya yenidən birləşdi, Aİ və NATO Şərqi Avropaya doğru genişləndi.

## 1. Sovet İttifaqının dağılmasının səbəbləri: siyasi, iqtisadi və sosial amillər

Sovet dövlətinin gücünün zəifləməsi Şərqi Avropa ittifaqlarının dağılmasına səbəb olan domino effekti yaratdı. Bu, Estoniya, Litva və Latviya kimi ölkələri müstəqilliklərini elan etməyə ruhlandırdı. 9 noyabr 1989-cu ildə Berlin divarının sökülməsi Şərqi və Qərbi Almaniyanın rəsmi olaraq yenidən birləşməsinə səbəb oldu (3). Çexoslovakiya, Bolqarıstan və Rumıniya kimi Şərqi Avropa ölkələrində vətəndaşlar özlərinin sovetyönlü hökumətlərinə qarşı etiraz aksiyaları keçirərək, keçmiş Sovet blokunda kommunist rejimlərinin dağılmasını sürətləndirdilər. Belarus, Rusiya Federasiyası və Ukrayna kimi digər ölkələr də Müstəqil Dövlətlər Birliyini yaradaraq bu yolla getdilər. 1989-cu ilin sonunda qalan doqquz respublikadan səkkizi müstəqilliklərini elan etdi və qüdrətli Sovet İttifaqı ləğv edildi.

Qərblə münasibətlər yenidən formalaşdı, yeni beynəlxalq aktorlar meydana çıxdı. Bu proses qlobal təhlükəsizliyə, iqtisadi əlaqələrə və beynəlxalq təşkilatlara böyük təsir göstərdi, beynəlxalq qüvvələr balansının dəyişməsinə səbəb oldu. Parçalanma Avrasiya məkanında geosiyasi xəritəyə, iqtisadi strukturlara və sosio-mədəni dinamikalara təsir etdi. Bu, yeni ittifaqlara, iqtisadi modellərə və regional təhlükəsizlik tənzimləmələrinin yenidən formalaşdırılmasına gətirib çıxardı. Dünyanın geosiyasi konfiqurasiyasında əsaslı dəyişikliklərə səbəb olan hadisə XX əsrin ən mühüm geosiyasi hadisəsi kimi qeyd

* *doktorant, Azərbaycan Turizm və Menecment Universiteti*
*e-mail:* elvin.shirinov008@gmail.com
**https://doi.org/10.30546/25194011.2025.14.4.018**

olunur. SSRİ-nin dağılması birqütblü dünyanın formalaşmasına və ABŞ-ın qlobal güc kimi təsirinin artmasına gətirib çıxardı. Çin böyük bir dünya supergücünə çevrilmək üçün genişləndi və Avropa İttifaqı isə bir vaxtlar SSRİ-nin nəzarətində olan ərazilərə öz təsirini genişləndirdi.

Bu tarixi prosesin nəticələrini nəzərdən keçirmək, SSRİ-nin dağılması ilə beynəlxalq nizamda regional və beynəlxalq səviyyədə baş verən dəyişiklikləri dərk etmək və bu prosesin dünya birliyi üçün geosiyasi nəticələrini təhlil etmək üçün unikal bir fürsət təqdim edir. Belə ki, Sovet İttifaqının 1991-ci ildə dağılması müxtəlif amillərin qarşılıqlı təsiri ilə meydana gələn mürəkkəb və çoxşaxəli bir proses idi. Dövlətin parçalanmasının səbəbləri siyasi, iqtisadi, coğrafi, sosial və geosiyasi aspektləri əhatə edir ki, bu da onu tarixdə unikal bir hadisə edir.

ABŞ ilə Sovet İttifaqı arasında gedən Soyuq müharibə və silahlanma yarışları ölkənin siyasi aparatında uzun müddət davam edən böhranın nəticəsi kimi parçalanmanı sürətləndirdi. Afrika, Asiya və Latın Amerikasında müxtəlif münaqişələrə müdaxilə etmək və müttəfiqləri dəstəkləmək Sovet İttifaqını çoxsaylı beynəlxalq öhdəliklərə məruz qoydu və xarici təzyiqləri artırdı.

İqtisadiyyat daha çox ağır və müdafiə sənayesinin ehtiyaclarını qarşılamağa yönəldiyindən, əhalinin göz ardı edilən gündəlik tələbatını qarşılayan məhsulların kəskin çatışmazlığı yarandı. Bu, iqtisadi strukturların əhəmiyyətli şəkildə pozulmasına və hərbi xərclərin artmasına gətirib çıxardı. Hərbi səylərlə bağlı yaranan iqtisadi çətinliklər və geosiyasi öhdəliklər ölkənin dağılmasına səbəb olan təkanverici amillərə çevrildi və Sovet sistemində mövcud olan dərin problemləri üzə çıxardı. Milli münaqişələr və bölgələrdəki inkişaf qeyri-bərabərliyi kimi sosial problemlər isə gərgin hadisələrin zəncirinə yol açdı.

1980-ci illərin sonları və 1990-cı illərin əvvəllərində aparılan islahat cəhdləri, köhnə strukturlarda aydın strategiyanın olmamasına görə uğursuz oldu. Sovet iqtisadiyyatının monopolist xarakteri və maliyyə sisteminə liberal yanaşma müəssisələri iqtisadi cəhətdən "ölümsüz" hala gətirmişdi. Belə ki, müəssisə zərərlə işləsə belə, bu, istehsalın dayanmasına gətirib çıxarmır, "ona əlavə kreditlər veriləcək, vergi dərəcəsi azalacaq, dotasiyalar təqdim ediləcək, ya da istehsal olunan məhsulun qiymətləri artırılacaq, amma nəticədə müəssisə maliyyə çətinliklərini aşacaq" (6, s. 54). L.İ.Brejnevin dövründə iqtisadi motivasiyanın kütləvi itirilməsi dövlət üçün ciddi təhdidə çevrildi. Y.V.Andropov iqtisadi motivasiyanın avtoritar komponentini bərpa etməyə çalışsa da, bu cəhdlər heç bir nəticə vermədi. M.Qorbaçov əvvəlcə həmin xətti davam etdirdi. Onun təklif etdiyi "Yenidənqurma" cəmiyyətdə yeniliklər gətirməyi hədəfləsə də, bu öz imtiyazlarını itirmək istəməyən özəl və siyasi elitanın müqaviməti ilə üzləşdi. Onun 50 milyard rubl gəlir gətirən spirtli içki ticarətini "alkoqolizmə qarşı mübarizə" adı ilə dayandırmağa çalışması böhranı daha da dərinləşdirdi. Nəticədə, islahatlar qeyri-kafi oldu və cəmiyyətin gözlədiklərini doğrultmadı (7).

Artıq 1985-ci ildən etibarən siyasi pendulum iqtisadi liberallaşmaya doğru hərəkət etməyə başladı. 1987-ci ildə istehsal vahidlərinin monopoliya quruluşundan azad olub sərbəst hərəkət etməsinə yol açan "Müəssisələr haqqında Qanun"un qəbul edilməsi ilə sovet sisteminə güclü zərbə vuruldu. Bu, təklifin artmasına gətirib çıxarmadı, əksinə, məhsullarının qiymətlərinin mütləq artacağını gözləyən müəssisələr resursları yığmağa başladılar. "Valyuta böhranı, dövlət gəlirlərinin azalması, büdcə defisiti pul təklifinin genişlənməsinə təkan verdi. 1991-ci ildə pul kütləsinin genişlənməsi SSRİ-nin son on ilində misilsiz miqyaslara çatdı" [5, s. 126]. Sovet rəhbərliyi xəzinədə yaranan boşluq-

ları xarici kreditlər hesabına bağlamağa çalışsa da, xaricdən kömək gəlmədi. Sovet monopoliyası faktiki olaraq iflas etdi.

ABŞ ilə hərbi güc sahəsində mübarizəni davam etdirmək üçün aparılan silahlanma yarışları iqtisadi vəziyyətin kəskin şəkildə pisləşməsinə səbəb oldu. Böyük miqdarda resurs və texnoloji axınlar hərbi ehtiyaclara yönəldildi, bu isə iqtisadi strukturu ciddi şəkildə təhrif etdi və hərbi xərclərin artmasına səbəb oldu. Məsələn, 1985-1987-ci illərdə Sovet İttifaqının rəsmi hərbi büdcəsi 19-20 milyard dollar, hərbi xərclər isə SSRİ-nin ÜDM-nin 15%-ni təşkil edib. 1989-cu ildə M.Qorbaçov 77 milyard rubldan (təxminən 96 milyard dollar) çox müdafiə xərclərini təsdiqlədi. 1985-1991-ci illərdə Sovet İttifaqının real hərbi xərcləri 260-319 milyard dollar, ABŞ-ınki isə 258-306 milyard dollar arasında dəyişib (4).

Daxili böhran xarici siyasətdə Qərbə birtərəfli güzəştlərə yönələn dönüşə səbəb oldu. M.Qorbaçovun sovet ekspansiyası və Qərb dünyası ilə əməkdaşlığına dair iqtisadi siyasəti idxalı yerli istehsala uzunmüddətli alternativ hesab edən münasibətə çevirdi. İqtisadiyyat xarici kapitalın təsirinə məruz qaldı. Neft və qaz ixracatı iqtisadiyyatın əsasını təşkil etdi, bu da Rusiyanın təbii sərvətlərdən asılılığını artırdı.

Siyasi və iqtisadi böhranla yanaşı, 1980-ci illərin sonlarına doğru güclənən mərkəzdənqaçma tendensiyaları və milli hərəkatlar Sovet İttifaqının birliyinə ciddi zərbə vurdu. Müxtəlif bölgələrdəki münaqişələr çoxmillətli cəmiyyətdəki dərin problemləri üzə çıxardı və bu problemlərin həlli, həmin dövrün idarəetmə sistemi tərəfindən effektiv şəkildə həll olunmadı. Nəticədə faciəvi hadisələr, soyqırımları, qaçqın və məcburi köçkün axınları baş verdi.

Xüsusi olaraq, Cənubi Qafqazda Azərbaycan-Ermənistan, Gürcüstan Cənubi Osetiya və Gürcüstan-Abxaziya, Pridnestroviya münaqişələri Sovet İttifaqının parçalanmasının simvoluna çevrildi.

### 2. SSRİ-nin dağılmasının geosiyasi nəticələri

SSRİ-nin dağılması yeni geosiyasi nəticələr yaratdı ki, bunları belə ümumiləşdirmək olar:

İkiqütblü dünyanın birqütblü dünyaya keçidi baş verdi. Sosialist blokunun dağılması nəticəsində ABŞ müvəqqəti olaraq yeganə supergüc kimi əsas beynəlxalq məsələlərə təkbaşına təsir etmə imkanını qazandı. Varşava Müqaviləsi Təşkilatının fəaliyyətinin dayandırılması qarşıdurmanın sona çatmasının bir əlaməti oldu.

Avrasiya məkanı radikal struktur dəyişikliklərinə uğradı. Birləşmiş Millətlər Təşkilatına üzv olan 15 müstəqil dövlət yarandı.

SSRİ-nin dağılması Çeçenistan, Dağlıq Qarabağ, Tacikistan və Gürcüstandakı müharibələr kimi bir sıra regional münaqişələrə və vətəndaş müharibələrinə səbəb oldu. Bu münaqişələr beynəlxalq təhlükəsizliyə təhdidlər yaradaraq genişlənmə və regiondan kənara yayılma potensialına malik idi.

Rusiyanın geosiyasi mövqeyinə ciddi zərbə vurulması nəticəsində sərhədlərin dəyişməsi və dəniz limanlarına çıxışın çətinləşməsi baş verdi. Ərazi parçalanması, həmçinin etno-milli və regional fərqliliklər Rusiyanı yeni qlobal kontekstdə beynəlxalq güc konfiqurasiyasındakı yerini yenidən qiymətləndirməyə məcbur etdi. Bu isə Rusiyadan nüfuzunu bərpa etmək və mövqeyini müəyyənləşdirmək üçün zaman tələb edirdi.

Şərqi Avropa ölkələri Qərb alyanslarının bir hissəsi oldular. Rusiya isə bir çox ölkələrdəki hərbi mövcudluğunu itirdi. Bu proses nəticəsində ABŞ öz təsir dairələrini genişləndirdi, digər ölkələrdə mövqeləri gücləndi. Polşa, Çexiya, Macarıstan və Baltikyanı

dövlətlər NATO-ya üzv oldular. Nəticədə, Qərbin geosiyasi sahəsi ciddi şəkildə genişləndi və NATO-nun hərbi-siyasi bloku şərqə doğru irəliləyərək Rusiyanın sərhədlərinə yaxınlaşdı. Şərqi Avropa məkanını bölüşərkən NATO, Rusiya təsirini qarşısına alaraq bu bölgənin strateji əhəmiyyətini vurğuladı. Bu xüsusiyyət, "Kim Şərqi Avropaya sahibdirsə, o, Hartlendə hakimdir" deyimi ilə təsdiqləndi və SSRİ-nin dağılmasından sonra ABŞ bu hədəfə yaxınlaşdı (2, s. 3).

Bu proses Rusiyanın geosiyasi həssaslığını artırdı, regionun geosiyasi dinamikasına təsir edən və Rusiya təhlükəsizliyi üçün çağırış yaradan amil oldu.

NATO-ya qoşulan Şərqi Avropa ölkələri həm də Avropa İttifaqı ilə əməkdaşlıq etməyə başladılar. Gürcüstan, Ukrayna, Azərbaycan və Moldova tərəfindən Qərbə inteqrasiyaya yönəlik yeni bir regional struktur – GUAM yaradıldı (7). Müstəqil Baltikyanı ölkələr (Litva, Latviya, Estoniya) nisbətən uğurla Qərbi Avropaya doğru meylləndilər.

SSRİ-nin dağılması Şərqi Avropanın hüdudlarından kənarda da bir çox regionlarda baş verən hadisələrə təsir etdi. Əvvəllər Sovet İttifaqının dəstəyi ilə mövcud olan rejimlər dəyişikliyə məruz qaldılar. 1992-ci ildə Əfqanıstanda Nəcibullah rejimi devrildi, ancaq vətəndaş müharibəsi davam etdi və Əfqanıstan ABŞ və onun müttəfiqlərinin maraq dairəsinə daxil oldu. 2003-cü ildə ABŞ-ın rəhbərlik etdiyi koalisiya qüvvələrinin müdaxiləsi ilə İraqda pro-amerikan rejimi quruldu. 2006-cı ildə isə sabiq İraq lideri S.Hüseyn edam edildi. Bu, Rusiyanın başqa bir geosiyasi müttəfiqini itirməsi ilə nəticələndi. Rusiya ilə tarixi olaraq dost ölkələrdə, məsələn, Misir, Liviya, Yəmən, Tunis kimi ölkələrdə "Ərəb baharları" baş verdi ki, bu da həmin ölkələrdə pro-amerikan rejimlərinin qurulmasına səbəb oldu.

Çin isə kommunist siyasi rejim ideyalarını qoruyaraq bazar iqtisadiyyatını tətbiq etməyə başladı. Nəticədə ölkə inkişaf etdi və Çin yeni qlobal aktor kimi yüksəlməyə başladı və hazırda dünya lideri olmağa iddialıdır.

Yeni müstəqil dövlətlər öz geosiyasi və geoiqtisadi maraqlarını izləməyə başladılar. Avropa xəritəsi dəyişdi. Yuqoslaviya və Çexoslovakiyanın dağılmasından sonra yeni dövlətlər meydana gəldi.

Bütün türk xalqları özlərini Böyük Turanla əlaqəli hiss edərək Türkiyə ilə sıx əlaqə qurmağa başladılar. XVIII-XIX əsrlərdəki Rusiya-Türkiyə müharibələri və diplomatik qarşıdurmalarından sonra Rusiya ilk dəfə olaraq Türkmənistanla bağlı ciddi geosiyasi maraqlarla üzləşdi.

Sovet İttifaqının dağılması dünya bərabərliyi ideyasına da ciddi zərbə vurdu. BMT Sovet İttifaqının və onun peyklərinin dağılmasından sonra zəifliyini nümayiş etdirdi. SSRİ-nin kədərli təcrübəsindən imtina edən Avropa İttifaqı, üzv ölkələrinin bərabərliyi ideyasını həyata keçirməyə çalışarkən, ardıcıl olaraq çətin və sərt böhranlara düçar oldu.

SSRİ-nin dağılması beynəlxalq əlaqələr sistemində sabitliyi azaltdı, terrorizm və ekstremizm qlobal problemlərə çevrildi. "Nüvə klubunun" genişlənməsi beynəlxalq təhlükəsizliyə yeni təhdidlər yaratdı və ölkələrin birgə səylərini tələb etdi.

Rusiyanın ərazisi dörddə bir qədər azaldı və bu, ciddi iqtisadi və geosiyasi nəticələrə səbəb oldu. SSRİ dövründə mövcud olan 18 federasiya subyektinə daha 25 yeni subyekt əlavə edildi, Kalininqrad vilayəti isə anklav olaraq yarandı. Yeni sərhədlər və gömrük-keçid məntəqələri 1605 km uzunluğunda oldu (Baltik ölkələri ilə 990 km, Azərbaycan və Gürcüstanla 615 km). Baltik ölkələri ilə sərhəd delimitasiya edilib, Polşa ilə sərhəd azaldı (yalnız Kalininqrad ilə sərhəd qalır) və Çinlə sərhəd qismən daraldı.

Sovet İttifaqının dağılması müasir qlobal geosiyasi vəziyyəti formalaşdıran əsas hadisəyə çevrildi. Müstəqil dövlətlərin yaranması yeni siyasi mənzərəni ortaya qoydu, su-

veren milli maraqlar əsasında yeni münasibətlər qurulmağa başlandı. Sosial və mədəni təsirlər isə milli münaqişələr, miqrasiya axınları və kimlik dəyişiklikləri ilə müşayiət olundu.

Ümumilikdə, Sovet İttifaqının dağılması müasir qlobal geosiyasi vəziyyəti formalaşdıran hadisələrin katalizatoruna çevrildi. Siyasi səviyyədə müstəqil dövlətlərin yaranması yeni bir siyasi mənzərə yaratdı və suveren milli maraqlar nəzərə alınmaqla yeni münasibətlər qurulmağa başlandı. Sosial və mədəni təsirlər mürəkkəb oldu: milli münaqişələr, miqrasiya axınları və sosio-mədəni kimlik dəyişiklikləri yeni cəmiyyət mənzərəsi yaratdı.

Beləliklə, Sovet İttifaqının dağılması "Belovejskaya" adlanan yeni geosiyasi eranın başlanğıcını qoydu. 1991-ci il Belovejskaya Puşşada ABŞ yeni müstəqil dövlətləri qorumaq üçün Moskva ilə münaqişəyə girməməyə çağırdı. Cənubi Qafqazda Gürcüstan və Azərbaycan hökumətləri Qərbdən daha artıq dəstək gözləyirdilər və Moskva ilə özlərini müdafiə edə biləcəklərindən artıq münaqişəyə girmişdilər. Yəni qlobal qüvvələr nisbəti düzgün hesablanmamışdı və hər iki ölkə vətəndaş müharibəsi və ərazilərin işğalı faktı ilə üz-üzə qaldı. Azərbaycan hakimiyyəti SSRİ-nin dağılmasından sonra yaranan yeni geosiyasi reallıqların sərhədlərini dəqiq müəyyənləşdirə bilmədi. Bakıda ABŞ, Avropa, NATO və Türkiyənin siyasi və hərbi təsir sahələri arasında sərhədləri təyin etmək çətinləşdi. Həmçinin, Qərbin təsirinin hüdudları və Rusiyanın təsirinin əhatə dairəsi qeyri-müəyyən idi. Azərbaycan hakimiyyəti, ABŞ-ın keçmiş SSRİ məkanını Rusiyanın təsirinə verəcəyini, B.Klinton B.Yeltsinə, C.Buşun isə M. Qorbaçova NATO və Aİ-nin şərqə genişlənməsinə razılıq verilməsi qarşılığında Rusiyanın keçmiş SSRİ məkanında fəaliyyət sərbəstliyini tanıyacağı barədə əldə edilən razılaşmanı nəzərə almamışdı (1). Məhz bu dövr beynəlxalq nizamda əhəmiyyətli dəyişikliklərin və ABŞ-ın aparıcı rol oynadığı yeni reallığın başlanğıc nöqtəsi oldu.

**Nəticə**

Ümumilikdə, Sovet İttifaqının dağılması siyasi və iqtisadi böhranın birbaşa nəticəsi oldu. Uğursuz islahatlar və avtoritar idarəetmə, siyasi sistemin çöküşünə səbəb olan problemlərin qarışığını yaratdı. Bu proses qlobal cəmiyyətə sürətlə dəyişən dünyada siyasi institutların çevik və uyğunlaşa bilən olmasının vacibliyinin xəbərdarlığı idi. SSRİ-nin dağılması beynəlxalq təhlükəsizlik sisteminin dəyişdirilməsində mühüm rol oynadı. Bu proses, həlli üçün beynəlxalq ictimaiyyətin birgə səylərini tələb edən bir sıra yeni çağırışlar və təhlükələr yaratdı. Bu hadisə dəyişən geosiyasi şəraitə effektiv cavab vermək üçün beynəlxalq institutların və təhlükəsizlik mexanizmlərinin uyğunlaşdırılması və inkişaf etdirilməsi zərurətini nümayiş etdirdi.

Sovet İttifaqının dağılmasında ekstensiv iqtisadi modelin yaratdığı disbalanslar, texniki gerilik və respublikalar arasındakı iqtisadi inkişaf fərqləri mühüm rol oynadı. Bu faktorlar, dövlətin uzunmüddətli sabitliyini təmin etmək üçün dayanıqlı və balanslaşdırılmış iqtisadi inkişafın əhəmiyyətini vurğuladı.

Nəticədə, Sovet İttifaqının dağılması uzunmüddətli dövlət idarəçiliyi və sosial rifahın təmin edilməsi üçün daxili və xarici amillər arasında tarazlığın vacibliyini, dövlət idarəetmə sistemlərinin çevikliyinin və dəyişən qlobal siyasətə adaptasiya olunma qabiliyyətinin nə qədər əhəmiyyətli olduğunu göstərir.

## ƏDƏBİYYAT

1. Məmmədov İ. Dəyişən dünya, Azərbaycanın reaksiyası və başqalarının təcrübəsi: 1991-ci ildən 2019-cu ilədək. (https://musavat.com/news/deyisen-dunya-azerbaycanin-reaksiyasi-ve-basqalar inin-tecrubesi-1991-ci-ilden-2019-cu-iledek_620401.html).
2. Blouet B. Global Geostrategy: Mackinder and the Defence of the West / B. Blouet. London: Routledge (Geopolitical Theory Series), 2005, 192 p. (https://biblioca talog.mgi mo. ru: 216 8/ lo gin.aspx?direct=true&db=e000xww&AN=505135&site=ehost-live).
3. Sälter G. The Fall of the Berlin Wall: The End of an Unharmonious Relationship, 1989, 19 p. (https://www.lztthueringen.de/media/saelter_gerhard_the_fall_of_the_berlin_wall_and_the_ end_ofan_unharmonious_relationship.pdf).
4. Военные бюджеты СССР, США, Китая и РФ: сравнение в цифрах. (https://topwar.ru/167182-pomeritsja-voennymi-bjudzhetami-kto-byl-i-est-kruche.html)
5. Гайдар Е. Долгое время. Россия в мире. Очерки экономической истории. Москва: Издательство Института Гайдара, 2022, 664 с.
6. Корнай Я. Дефицит / Пер. с венг. М.: Наука, 1990, 608 с.
7. https://pravo.ru/story/239855/
8. https://www.webcitation.org/61C964Puy?url=http://guam-organization.org/node/240

***Резюме***

***Эльвин Ширинов***

***Распад Советского Союза и изменение международного порядка на региональном и международном уровнях***

Распад Советского Союза – это сложный процесс, который происходил в конце 1980-х и в 1991 году. Этот процесс положил конец холодной войне и коренным образом изменил международный порядок, что привело к формированию однополярного мира. Ослабление СССР вызвало эффект домино: страны Восточной Европы провозгласили свою независимость, Берлинская стена была разрушена, а Организация Варшавского договора распалась.

Основными причинами распада стали неудачная экономическая политика и управленческий кризис. Плановая экономика, ориентированная на тяжёлую промышленность, не могла удовлетворить потребности населения. Политика «Перестройки» Михаила Горбачёва провалилась из-за сопротивления старой политической элиты и ошибочных экономических решений. Военные расходы и зависимость от нефти ещё больше усугубили экономические проблемы.

Распад создал новые геополитические реалии. Появилось пятнадцать независимых государств, Россия потеряла четверть своей территории, а НАТО расширилось на восток. В результате начались региональные конфликты (Нагорный Карабах, Чечня) и гражданские войны. Кроме того, такие страны, как Азербайджан, столкнулись с территориальными потерями, поскольку не смогли выработать правильную стратегию в новых геополитических условиях. В целом, распад СССР породил новые вызовы для системы глобальной безопасности и продемонстрировал важность адаптивности государств к меняющимся условиям.

**Ключевые слова:** *Советский Союз, США, холодная война, международный порядок*

***Summary***

***Elvin Shırınov***

***The Collapse of the Sovıet Unıon and the transformatıon of the ınternatıonal order at regıonal and ınternatıonal levels***

The collapse of the Soviet Union was a complex process that took place between the late 1980s

and 1991. This process ended the Cold War and fundamentally changed the international order, leading to the formation of a unipolar world. The weakening of the USSR triggered a domino effect; Eastern European countries declared their independence, the Berlin Wall was torn down, and the Warsaw Pact was dissolved.

The main reasons for the collapse were a failed economic policy and a governance crisis. The centrally planned economy, focused on heavy industry, could not meet the needs of the population. Mikhail Gorbachev's "Perestroika" policy was unsuccessful due to the resistance of the old political elite and flawed economic decisions. Military spending and dependence on oil further deepened the economic problems.

The collapse created new geopolitical realities. Fifteen independent states emerged, Russia lost a quarter of its territory, and NATO expanded eastward. This resulted in regional conflicts (Nagorno-Karabakh, Chechnya) and civil wars. Furthermore, countries like Azerbaijan faced territorial losses because they could not develop a correct strategy in the new geopolitical environment. Overall, the collapse of the USSR created new challenges for the global security system and demonstrated the importance of states' ability to adapt to changing circumstances.

**Key words:** *Soviet Union, USA, Cold War, international order*

Baş redaktorun müavini s.e.d., prof. İbrahimova Gülzar İsaxan qızının rəyi əsasında çapa məsləhət görülmüşdür.